# Xarici mətbuat Azərbaycan haqqında



STAI LEGGENDO: Viaggio a Baku, la capitale dell'Azerbaijan. La destinazione più da in ...

MODA PEOPLE BELLEZZA FAMIGLIE REALI OROSCOPO

Viaggio a Baku, la capitale dell'Azerbaijan. La destinazione più sorprendente da visitare in Eurasia

Torri avveniristiche, antichi palazzi-fortezza, edifici "soviet style". Baku è radicata nella sua storia. Ma con tanta voglia di cambiamento

di GIANNA TESTA

***İtaliyanın nüfuzlu “Eurasiaticanews. altervista.org” portalında “European News Agency” agentliyinin müxbiri Karlo Marinonun “İlham Əliyev – müasir Azərbaycanın Prezidenti” sərlövhəli məqaləsi işıq üzü görüb.***

AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanovun “İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident” sərlövhəli məqaləsinə istinad olunan həmin yazıda ölkə başçısının fəaliyyəti, onun rəhbərliyi ilə qazanılmış uğurlardan bəhs edilir.

Məqalədə qeyd edilir ki, Prezident İlham Əliyev inkişaf etmiş Azərbaycan dövlətinin yaradıcısı kimi tarixə düşüb: “Bu gün dünya İlham Əliyevi islahatçı Prezident kimi tanıyır və qəbul edir. Dünya Bankının “Doing Business 2020” hesabatında Azərbaycan islahatlar həyata keçirən ən yaxşı 20 ölkə arasında yer alır. Davos Dünya İqtisadi Forumunun hesabatında isə uzunmüddətli hökumət strategiyası baxımından Azərbaycan 10-cu, islahatlara diqqət baxımından 5-ci yerdədir. Bütün bunlar isə Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir”.

Bir neçə gün öncə Ermənistan silahlı qüvvələri dövlət sərhədindəki təmas xəttində növbəti dəfə təxribat törətmişlər. Bu hadisə yerli mətbuatla yanaşı, Türkiyənin aparıcı media orqanlarında da işıqlandırılıb. “Sabah” qəzetində “Ermənistan və Azərbaycan sərhədində atışma” sərlövhəli xəbər dərc edilib. Xəbərdə Azərbaycan Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin məlumatına istinad edilməklə, təxribat zamanı Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində qarşı tərəfdən açılmış snayper atəşindən sərhədçi əsgər Fərzalı Fərzəliyevin şəhid olması vurğulanıb.

https://economictimes.indiatimes.com/ saytında “Banqokdakı manqo yapışqanlı düyü, Azərbaycanda paxlava: dünyada sınamaq üçün 5 desert” sərlövhəli məqalə dərc edilib. Məqalədə səyahətsevərlərə gedəcəkləri ölkələrdə milli mətbəxdə yer alan özəl şirniyyat və desertlərdən bəhs edilir. Onların arasında milli kulinariyamızda seçilən Şəki paxlavası da yer alır. Məqalədə turistlərə Azərbaycana gələrkən Şəki paxlavasının dadına baxmaq tövsiyə olunur və onun özünəməxsusluğundan bəhs edilir: “Paxlava öz bişirmə metodları və məmulatlarına görə müxtəlif regionlarda bir sıra fərqlərə malikdir. Şəki Azərbaycanda ən qədim şəhərlərdən biridir və öz şirniyyatları ilə çox məşhurdur. Onlardan biri olan paxlava alovu simvolizə etməklə almaza bənzəyir…”

İtaliyanın “İO DONNA” jurnalında “Azərbaycanın paytaxtı Bakı: Avrasiyada ən heyranedici məkan” sərlövhəli məqalə işıq üzü görüb. Məqalədə Bakının tarixi və müasirliyi, həyat tərzi, milli mədəni irsi və unikal tarixi məkanları barədə ətraflı məlumat verilir, futuristik üslubda qalalar, qədimi müdafiə tikililəri və saraylar vurğulanır.

Müəllif Canna Testa Dənizkənarı Milli Park, Heydər Əliyev Mərkəzi, Xalça muzeyi, eləcə də Bakının müasir tikililərindən olan “Alov qüllələri”nin unikallığını xüsusi vurğulayır və qeyd edir ki, Bakı tarixi köklərinə nə qədər bağlı olsa da, yeniliklərə də daim açıqdır.



SABAH

SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜNYA

Ermenistan-Azerbaycan sınırında çatışma... Bir Azerbaycan askeri şehit oldu

Ermenistan-Azerbaycan sınırında Ermeni askerlerin açtığı ateş sonucu Azerbaycan ordusundan bir asker şehit oldu. Açıklamada, Ermeni keskin nişancıların ateşi sonucu bugün yerel saatle 14.56'da Azerbaycan ordusundan Ferzeli Ferzeliyev isimli askerin şehit düştüğü kaydedildi.

Məqalədə, həmçinin futbol üzrə 2020-ci ildə keçiriləcək Avropa Çempionatına (12 iyun-12 iyul) ev sahibliyi edəcək 12 şəhərdən birinin məhz Bakı olduğu qeyd edilir.

Məqalədə müəllif turistlər üçün Bakının cəlbedici olmasını belə izah edir: “Bakının çox rəngarəng ruhu var. Bura sanki Şərq və Avropa mədəniyyətlərinin qovşağıdır. Məhz bu vəhdət Azərbaycan paytaxtını gələcəyə hədəflənmiş xüsusi məkana çevirir.”

***Əfsanə BAYRAMQIZI, “Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 10 yanvar.- S.7.